***Milli özünüdərk və istiqlal ədəbiyyatı***

# Poeziya milli məfkurə qaynağı kimi

**Elnarə Akimova**
Filologiya elmləri doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: akimovaelnara@mail.ru

**Annotasiya.** Məqalədə poeziyada vətən mövzusu araşdırılır, ondan milli məfkurə qaynağımız kimi bəhs edilir. XX əsrin əvvəllərindən başlayaraq, mövzunun keçdiyi immanent inkişaf yolu təqib edilir, müxtəlif zaman dönəmlərində hansı təbəddülatlara uğraması izlənilir. XX əsrin əvvəllərində hürr əzmli poeziya sovet dövründə hansı mərhələlərə məruz qalıb kimi suallara cavab aranır. Eləcə də müstəqillik illərində vətən mövzusuna müraciət necə reallaşır kimi məsələlər əsas tədqiqat predmetinə çevrilir.
**Açar sözlər:** poeziya, vətən, məfkurə, müstəqillik, zəfər

**Məqalə tarixçəsi:** göndərilib – 18.04.2021; qəbul edilib – 29.04.2021

# Poetry as a source of national ideology

**Elnara Akimova**
Doctor of philological Sciences
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: akimovaelnara@mail.ru

**Abstract.** In the article is dealt with the homeland issue in poetry and it is mentioned as a source of our national ideology. Since the beginning of $20^{th}$ century an immanent path of development of the content has been observed and it is noted how the content has changed at different times. In the article is looking for an answer to a question what stages free poetry went through during the Soviet period at the beginning of the $20^{th}$ century. Also in the years of independence the issues such as how to address the homeland content is explored.
**Keywords:** poetry, homeland, ideology, independence, victory

**Article history:** received − 18.04.2021; accepted − 29.04.2021

## Giriş / *Introduction*

Yola saldığımız 2020-ci il bir çox proseslərlə xarakterik olsa da, bir məqamı – 30 ilə yaxın işğalda olan Qarabağın azad olunması sevincini, Zəfər duyğusunu, qalibiyyət əzmini bizə yaşatdığı üçün tarixi bir dönüşün aktını gerçəkləşdirən zaman kəsiminin simvoluna çevrildi. Bu proseslər həm də Vətən anlayışına həssaslığımızı artırdı. Bütün məqsədlərin, bütün amalların önünə birinci Vətən keçdi. Vətən üçün ölməyin, vətən üçün bir olmağın nümunəsini sərgilədi Azərbaycan.

Poeziyamızda Vətənin obrazı necə əyaniləşib? Hansı dövrlər, hansı mərhələlər onu daha yaxşı şəkildə bədii sözün təcəssümü etməyi bacarıb?

**Əsas hissə / *Main Part***

Vətən anlayışı poeziyamıza Əli bəy Hüseynzadənin İstanbul Universitetində təhsil aldığı illərdə yazdığı “Hali-vətən”i ilə daxil olub. Bunu ötən il “115 yaşlı “Hali-vətən” adlanan yazısında ədəbiyyatşünas alim Azər Turan geniş araşdıraraq qeyd edir: “Əli bəy Hüseynzadənin "Hali-Vətən"i o dönəmdə Vətənin fəlsəfi-kulturoloji kateqoriya, şüur hadisəsi kimi təzahür etməsini təmin edir, Vətənin halını poeziyanın yüksək dilində ifadə edən ilk şeirimiz kimi meydana çıxır. "Hali-Vətən"in sonrakı taleyi, zaman-zaman toplumun yaddaşında oyatdığı intiba onun millət quruculuğunda hansı miqyasda iştirak etdiyini, bu prosesdə məhək daşı olduğunu düşünməyə əsas verir” [1].

Cümhuriyyət sevdalı, hürr əzmli poeziya... Bu dövrün ədəbiyyatı mənəviyyata milli kimlik, milli mənlik ovqatının aşılanması baxımından xüsusi önəm kəsb edir və bütün dövrlər üçün görk edilə biləcək səviyyədə ona üz tutulmasına layiqdir. Həqiqətən də, mənəvi səfərbərlik ruhunun dirçəldilməsində, ümumxalq ruhunun hürriyyət məramı ətrafında birləşdirilməsində XX əsrin əvvəllərinin milli özünüdərk, milli istiqlal idealı ilə yoğrulmuş poeziyanın xidməti əvəzsiz olmuşdur. Bu dövrdə poeziyada və nəsrdə tərənnüm və milli özünüdərkdən doğan milli ləyaqət və şərəfin vəsfi digər mövzu və problemləri kölgədə qoymuşdur. Milli triadamızın banisi Əli bəy Hüseynzadənin böyük yurd sevgisinin təzahürü kimi gerçəkləşən və ədəbiyyatımıza ilk vətən şeiri kimi daxil olan “Hali-vətən” nümunəsindən tutmuş “Ey vətən, ey pəriyi-vicdanım/ Səni sevmək deyilmi imanım” kimi – Hadinin vətəni sevməyin düsturunu yaradan misralarına qədər ucsuz-bucaqsız sevgi, sonsuzluq işarəsi...

Akademik İsa Həbibbəyli XX əsrin əvvəllərindən etibarən milli ədəbi-ictimai fikirdə Azərbaycançılıq təliminin əsas yer tutduğunu bildirərək yazır: “Azərbaycançılıq – milli düşüncənin və Vətən anlayışının bir yerdə qavranılması təlimi kimi xalqın və ölkənin milli maraqlarının – maarifçilikdən milli azadlıq ideyalarına, istiqlal mübarizəsi düşüncəsinə, dövlət müstəqilliyi şüuruna qədərki bütün ideallarının ədəbiyyatın canında və qanında olmasını qaçılmaz həyati tələbat səviyyəsinə qaldıran ümummilli məfkurədir” [2, s.102-103]. Məhz məfkurəvi qayəyə söykənməsi, milli özünüdərk və vətənpərvərlik ideyalarının parlaq təcəssümünü verməyi əsas hədəfə çevirməsi XX əsrin əvvəllərinin poeziyasını həlledici mərhələ kimi təsnif etməyə imkan verir. Bu poeziyanın içində hər şey var. Yalnız bir əsr əvvəlin deyil, bir əsr sonranın yaşantıları, çırpıntıları, savaş və coşğu ruhunun əks olunduğu bütün çalarlar: şəhid ağrısı, bayraq ucalığı, müzəffər ordu, türk birliyinin qələbəsi, düşməni əzmək məramı, vətən sevgisi, yurd aşinalığı, Turan əzəməti və s., və i...

Bəli, ədəbiyyat, bədii söz həm də tarixin yuvasıdır, bu günün dərslərini zamanın sonrakı axarına qatan və gələcəyə ötürən ən etibarlı məxəzdir. Bu halda qanunauyğun bir məqam da var: baş verənlərlə birlikdə ona münasibət də tarixin predmetidir! Bir əsr əvvəlin ədəbiyyatı millətə enerji püskürən qüvvət mənbəyi oldu. Sonrakı illərdə də vətən mövzusu şairlərin ən çox xitab etdiyi ünvana çevrildi. Sovet ideologiyasının ən sərt, ən qatı dövrlərində vətən mövzusunda gözəl mətnlər yazıldı: Səməd Vurğunun “Azərbaycan” şeiri vətəni tərənnümün, vəsfin ən poetik nümunəsi oldu. Bu şeirlə bağlı professor Qorxmaz Quliyevin belə bir fikri var: “Biz hələ S.Vurğunun “Azərbaycan” şeirinin “Azərbaycan” adlı məkanın SSRİ daxilində, Azərbaycan xalqının sovet xalqı içində əriyib yoxa çıxmasının qarşısını almaqda, bu gün öyünə-öyünə vurğuladığımız mentallığımızın qorunub saxlanmasında rolunu lazımınca dəyərləndirməmişik. "Azərbaycan” şeirindən sonra azərbaycanlılar üçün Azərbaycan əbədi olaraq Ana Vətəndir... "Azərbaycan” şeirindən sonra poeziyamızda Vətənin vəsfi ilə bağlı yaranmış bütün bədii nümunələr bu və ya digər şəkildə S.Vurğunun dünyaduyum və deyim tərzinə söykənir, S.Vurğun ənənələrini davam etdirir... Bu baxımdan, məhz S.Vurğunun "Azərbaycan” şeirinin pafosu B.Vahabzadənin uzun illər keçəndən sonra "Gülüstan” poemasını yazmasına imkan yaratdı” [3, s.169].

Bəxtiyar Vahabzadənin “Gülüstan”ındakı pafosun Vurğunun “Azərbaycan” şeirindən nəşət tapması ideyası o qədər özünü doğrultmasa da (zənnimcə, poetik ruh etibarilə “Gülüstan” XX əsrin əvvəllərinin istiqlal amalından doğan şeirləri ilə daha ortaq ədəbi müstəviyə gəlir) onların bir

müştərək məqamda birləşmələri dəqiqdir: unudulmayan, uca tutulan, mehrab kimi müqəddəsliyinə tapınan vətən amili! Bu amil Səməd Vurğunun şeirindən başlamış vətəni əziklik kompleksindən çıxarıb ona milli məzmun, mənəvi qüdrət aşılayan Bəxtiyarın, Xəlil Rza Ulutürkün odlu misralarına qədər estetik ərazini çevrələyir. Vətənin dili, bayrağı, ordusu, əsgəri daim bədii təcəssüm predmeti olur. Qarabağla bağlı nigaranlığını da gizli-gizli varlığında daşıyır bu poeziya. Məsələn, Rəsul Rza 1970-ci ildə Qarabağ silsiləsindən və içəriyində "Sənin doğma torpağında / neçələrin gözü qalıb. / Vətən adlı doğma yurddan / püşk olarmı?!" Pay olarmı?!", - kimi xəbərdarlıqların yer aldığı şeirlər yazır. Süleyman Rüstəmin Qarabağ şeiri 1988-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunur. Qarabağ mövzusuna, başlanan hadisələrə rəsmi mətbuatda ilk poetik münasibət idi bu şeir. Baxmayaraq ki, 80-ci illərin ortalarında Eldar Baxışın Zori Balayana cavabı artıq dillərdə dolaşırdı.

1960-cı illər milli poeziyada modernizmə keçid anı idi. Bu dövrdə yaranan şeirlər fəlsəfi-intellektual təmayülün əsasını qoymaqla bahəm, düşüncə vüsətinin genişliyi ilə seçilir, insana münasibətdə planetar səviyyədə narahatlıq və sevincin izharına çalışır, şairin öz fərdi "mən"inə marağını arxa plana keçirir, daha çox ictimai gerçəkliyə münasibətini önə çəkməyi tərcih edirdi. Bu məqam vətənə münasibətdə də hakim idi. Məsələn, Əli Kərimin "Ana" şeiri düşüncələrimizi daha əyani şəkildə sərgiləyir. Hətta anasına ünvanladığı şeirdə belə şairin duyğuları fərdi yaşamından, subyektiv hiss-həyəcanının inikasından qanadlanmır, rejimin şair önünə yuvarlatdığı SSRİ adı ilə işarələnmiş siyasi-coğrafi məkanın – "ictimai-siyasi Vətən" anlayışının hüdudlarından çıxış edirdi: "Mən səni bağrıma basanda bərk-bərk,// Elə bil Göyçaydan Kamçatkayadək/ Vətən torpağını qucaqlayıram".

Tarixlə poeziyanın missiyası eyni məkanda və eyni niyyətdə həmişə birləşiblər: yaddaşın oyaq qalmasına münasibətdə. Çünki tarix kimi poeziya da meyardır. Yaddaşa, həqiqətə qoyulan abidədir. 60-cı illərdən başlayaraq vətən mövzulu şeirlərdə yanaşmaların istiqaməti dəyişir, vətən sevdalı, kök, mənşə bağlarına sadiq, tarixə və yaddaşa etibarlı bir sənət nümunəsi olaraq yaranan şeir nümunələri təsəvvürün sınırlarını aşıb sabaha, gələcəyə doğru inkişafda milli ədəbi, fəlsəfi və əxlaqi qütbləri nişan verirdi. "Torpağı ot deyil, kişi göyərdən – Vətən! Vətən!" , - yazırdı Sabir Rüstəmxanlı. Bu şeirlərdə insanın, fərdin mənəvi varlığını yaddaşla bağlayan qatlara, dəyərlərə şair marağı öndə durur, onlar insanı yalnız təbiətin deyil, həm də və daha çox tarixin bir parçası kimi təsvir etməklə önəmli görünürlər.

Məmməd Araz, Bəxtiyar Vahabzadə, Xəlil Rza Ulutürk, Zəlimxan Yaqubun ömür bioqrafiyasında, ədəbi yaradıcılığının tərcümeyi-halında geridə qalan bir əsrə yaxın zaman kəsiminin addımları duyulur və bu addımlar milli tariximizin, milli varlığımızın nəfəsi duyulan qatlarından ayaq açıb yeriyir. Bu qatlar tarixdir, dildir, azadlıq idealları, istiqlal vuruşudur. Bu şairlərin şeirləri sovet dövründə bilərəkdən güdaza verilən tarixi yaddaşın, bilərəkdən unutdurulan dil yaddaşının, bilərəkdən susdurulan azadlıq nidasının diriliyinə imkan vermək amacına xidmət üçün ərsəyə gəlmişdi. Onların poeziyasında gur, çılğın notların başlanğıc məqamları bu amillərə söykənirdi. Vətənin və xalqın tarix bioqrafiyasını poeziyanın yaddaşına çevirmək... Bu şairlərin daha çox "eşidilən", daha çox qulaq verilən sözün sahibi olmalarının mahiyyətində dayanan amillər bununla bağlıdır.

Bu illərdə vətən anlayışına münasibətdə başqa bir təmayül də gəlişirdi. Ümumiyyətlə, 70-80-ci illərdə poeziyanın mövzu və ifadə şəklinin dəyişməsi vətən mövzulu şeirlərə də təsirsiz qalmadı. Vətənlə bağlı ekstravert duyumun yerini şairlərin qəlblərinin dərinliklərində özünə yer etmiş munis, doğma bir vətən anlayışı tuturdu. Tribun səciyyəli siyasi tematikadan imtina edilməyə, toplumsal yanaşmanın yerinə poetik qəhrəmanın fərdi vətən anlayışından doğan çalarlar gəlməyə başladı. Bu dövrün poeziyasında daha çox kədərin kamilləşdirici roluna önəm verilməsi, şeirlərdə başlıca hədəflərin absurd situasiyalar, insan təkliyi, mənəvi böhran təsvirlərinin olması, həyat və ölüm, dünya və mən, təbiət və insan mövzularının özgə problematika və mündəricədə poetik müstəviyə gətirilməsi vətən mövzusuna da baxışı müəyyən qədər dəyişdi.

1980-cı illərin sonlarında başlanan xaotik proseslər, 90-cı illərdə törədilən Qanlı Yanvar faciəsi sovet imperiyası ilə bağlı bütün illüziyaların puç olduğunu göstərdi. Baş verən kata-

klizmlər, gözlənilməz fəci olaylar ədəbi fikrin də çaşğınlığına səbəb oldu. Daha sonra kəskinləşən Qarabağ problemi, ard-arda itirilən torpaqlar, bir-birini əvəzləyən fəci günlər, qəhrəman oğullarımızın itkisi ... və müharibədən məğlub çıxmaq reallığı bədii düşüncəyə yansımaya bilmədi. Hadisələr elə sürətlə baş verdi ki, bütün düşüncə sferalarında bir qırıqlıq yaşanmağa başladı. “Boşluq mərhələsi” adlandırdığımız 90-cı illərdə hakim olmuş deqradasiyanın nəşət tapdığı məqamlar burdan qaynaqlanırdı və ardından ruhun tənəzzül durumunu labüdləşdirirdi. Buna görə müstəqillik dövrünün poeziyası daha çox minor motivlər üstə köklənən, insanın mənəvi-ruhsal tənəzzülünü sərgiləyən ovqat şeirləri ilə xarakterizə olunur. Bu qırıqlıq vətən mövzulu şeirlərə, hətta bu mövzuda poetik əlvanlıq nümayiş etdirən şairlərin psixoloji durumuna, vətən və obrazın ruhi vəziyyəti arasındakı münasibətə də sirayət etdi. Bəxtiyar Vahabzadənin misraları həmin tənəzzülü aydın ifadə edir: *“könlüm oldu xarabazar/talan mənim içimdədir”.*

Bu mərhələdə yazılan əksər şeirlərdə müharibənin tragik lövhələri müxtəlif ovqat polifonizmi ilə bədii təcəssümün predmetinə çevrilmişdir. Daha çox qisas ritminə köklənən, yağı düşmənə qarşı alov püskürən bu şeirlər düşüncə tərzinin emosional yönümü ilə yadda qalır: “Mən bilirəm: geriyə yol yoxdur atam!/Öncül oğul dönüb geri baxmır, atam!” (M.Araz); “Əhrimənlər yuvasını darmadağın edəcəksən,/Qalxıb sabah Aya, Marsa, ulduzlara yetəcəksən,/Altı milyard insanlığam, qarı düşmən, sənsə təksən,/Zəhər saçan bir əfisən, tor quran bir hörümçəksən.” (X.R.Ulutürk); “Nə qədər ki, qisası yağıdan almamışıq,/Düşmənin qollarını yanına salmamışıq,/Haqqımızı qazanıb qələbə çalmamışıq,/Eşqim, ruhum, mənliyim hərəsi bir yaraqdır!/Bu da bir cür imtahan, bu da bir cür sınaqdı!/Vətən, əymə qəddini, dar gündü, dar ayaqdı!!!” (Z.Yaqub); “Qalx, düşmən əlində vətən çırpınır,/Qayaya çırpılır, daşa çırpılır,/Qalx, qovaq göylərdən bu qara yeli./İrəli, irəli, ancaq irəli!” (F.Mehdi); yaxud “Geysin döyüş paltarını Alov saçan dağdaşımız,/Ağlamayın, məlhəm deyil yaramıza göz yaşımız!” (H.Kürdoğlu).

1990-cı illərin sonlarından başlayaraq zaman və onunla bağlı ideyaların deqradasiyaya uğraması cəmiyyətdə son problematikasını labüdləşdirdi, şəxsiyyətin iflasına, onun içindəki çöküş fəlsəfəsinin yaranmasına rəvac vermiş oldu. 1990-2000-ci illərdə Həmid Herisçinin, Murad Köhnəqalanın, Rasim Qaracanın, Salam Sarvanın, Qulu Ağsəsin, Zahir Əzəmətin, Aqşin Yeniseyin, Sevinc Pərvanənin, Nərmin Kamalın və başqa müəlliflərin yazdıqları nümunələrin əksəriyyətində sərgilədikləri mövzulardan asılı olmayaraq ağrılı bir Zaman var. Onlar cəmiyyətə və dünyaya aqressiv münasibəti, sərt dramatizmi, kəskin pafos, ironiyası ilə seçilir. Bu şeirlər daha çox sosial mənzərələrin təsvirinə açılır, sosial-ictimai təzyiqlərdən mənəvi təbəddülatlara uğramış insanın ovqatını, ruhi sarsıntılarını sərgiləyir. Vətənə, Qarabağ məsələsinə münasibətdə sərt dramatizm önə keçir. Zahir Əzəmətin “Əsgər məktubu”, Rasim Qaracanın “Əgər ən yaxın dostun müharibədə ölmüşsə”, Qulu Ağsəsin “Müharibə əlili” şeirlərində insan faciəsi ən epataj səciyyəli elementlərinə qədər poetik təsvirin predmetinə çevrilir, vətən üçün döyüşən insan şüurunun altyapısı, içinin təlatümü – qorxusu, narahatlığı, arzusu bədii mətnə gətirilir.

Səbəb aydındır: bu şairlərin yetişdikləri dövr 1990-cı illərdir ki, bu dövrə xas olan bütün fəci reallıqlar onların baxışlarına xüsusi təsir göstərib: müharibə, yurd itkisi, şəhidlik ağrısı, müxtəlif qətllər, zorakılıqlar, soyqırım dəhşətləri, ictimai-siyasi xaos, mənəvi-əxlaqi deqradasiya və bütün bunları tarixi taleyində daşımağa müncər olmur insan həyatı. Buna görə də gənclik dövrü məmləkətin sərt sınaqlar və fəci yaşantılar dövrünə düşənlərin istər geriyə, istərsə də gələcəyə yönələn baxışında ancaq və ancaq yaddaşlarına hopmuş, lokal əlacsızlıq mənglənəsində çabalayan insanın portretini sərgiləmək missiyası var. Bu disharmoniyanın içində Vətən anlayışına münasibət də ironikdir: “Mən bu Ana Torpağı/öz üst-başımda yalnız toz-torpaq kimi gördüm, /vəssalam” (Salam Sarvan).

## Nəticə / *Conclusion*

Biz müharibə aparan, erməni kimi düşməni olan bir ölkənin yazarlarından bunu gözləyirdikmi? Son otuz ildə vətən adına ideoloji təbliğat etiraf edək ki, o qədər də dərinə işləmədi, milli insanın içindəki savaş ruhunu zəiflətdi. Vətəni coşğulu, aşina bir ruhla sevmək yerinə yuxarıdakı

ironik kontekt önə keçdi. Erməni qızına heyranlığı poeziyaya gətirmək, qaziyə, əsgərə olan biganəliyi sərgiləmək, vətənin ağrılarını deyil, qüsurlarını hədəfə alıb onsuz da zamanın gətirdiyi pessimist ovqatı bir az da dərinləşdirmək. Bu mənada, Ramiz Rövşənin "səni sevmək çətindir, vətən, nə gündəsən?" misraları ilə başlayan şeiri bir vaxtlar təntənəli pafos və tərənnümlə süslənən Azərbaycan – Ana Vətən obrazının dekonstruksiyaya uğradılmış şəkli təsiri bağışlayır. Ramiz Rövşənin digər şeirində vətən anlamı insan içinin çöküşü, dərin böhranı ilə harmonik verilir, milli-mənəvi-əxlaqi ideallların tənəzzülə uğradığı yerlərdən, natur-fəlsəfi qatlardan nəşət tapır.

Ona görə biz XX əsrin əvvəllərdə yazılan şeirlərdən daha inamla bəhs edirik ki, milləti qalib edən poeziya məxəzimiz həmin dövrün hər misrası ilə vətən quran, birlik əzminə xidmət edən mətnlərində əyaniləşib. Dövr qarışıq, dolanışıq çətin, yurd-yuvaları sərgərdan olsa da, Hadinin "məyus olma, amandır" misrasındakı kimi ruhsal zənginlik özünü tükətməyib.

### Ədəbiyyat / *References*


1. Azər Turan. 115 yaşlı "Hali-vətən". "Ədəbiyyat qəzeti", 2019, 12 yanvar.
2. Azərbaycan ədəbiyyatı: dövrləşdirmə konsepsiyası və inkişaf mərhələləri. Bakı: Elm, 2019.
3. "Mən bir uşaq, sən bir ana" – Bədii fikirdə Vətən mövzusu. "Azərbaycan" j., 2011, №2.


## Поэзия как источник национальной идеологии


**Эльнара Акимова**
Доктор филологических наук
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: akimovaelnara@mail.ru



**Резюме.** В статье рассмотрена тема родины в поэзии, являющаяся источником национальной идеологии. Прослежено сталкивание с преградами имманентного пути её развития с начала XX века, спады в различные отрезки времени. Ведутся поиски ответов на причины, приведшие вольнолюбивую поэзию в советский период, в начале XX века, к упадку. Основным предметом исследования является вопрос обращения и реализации темы родины в годы независимости.



**Ключевые слова:** поэзия, родина, идеология, независимость, победа